AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MƏDƏN VERGİSİ

BAKI – 2023

## Mədən vergisinin ödəyicisi kimlərdir?

Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir.

## Mədən vergisini necə hesablamalısınız?

- **Faydalı qazıntılar üzrə**

  Yerin təkindən çıxarılan faydalı qazıntıların **topdansatış qiymətinə*** aşağıdakı faiz dərəcələrini tətbiq etməklə:

  - Xam neft – **26 faiz**
  - Təbii qaz – **20 faiz**
  - Filiz faydalı qazıntıları (bütün növ metallar) – **3 faiz**

***Topdansatış qiyməti:**

- Vergi ödəyicisinin çıxardığı faydalı qazıntılar üçün müəyyən etdiyi (əlavə dəyər vergisiz) faktiki buraxılış (satış) qiyməti (bazar qiymətlərindən aşağı olmayan),
- Bu qiymətlər dövlət tərəfindən müəyyən edildikdə isə tənzimlənən qiymətlərdir.

**Unutmayın ki...**

- Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

- **Qeyri-filiz faydalı qazıntılar üzrə**

Növündən asılı olaraq hər kubmetr üçün, yodlu bromlu sular **0,04 manat**, mişar daşları **2 manat**, qiymətli və yarımqiymətli bəzək daşları **6 manat**, duz **6 manat**, mineral sular **10 manat**

aşağıda sadalananlar üzrə isə hər kubmetri üçün **1 (bir) manat**

- seolit
- barit
- çınqıl xammalı
- bentonit gilləri
- kərpic-kirəmit gilləri
- vulkan külü və pemza
- kvars qumları
- tikinti qumları
- yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər
- sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü)
- gips, gəc
- üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı)

## Mədən vergisinin bəyannaməsini nə zaman təqdim etməli və ödənişləri necə həyata keçirməlisiniz?

- Mədən vergisinin bəyannaməsini faydalı qazıntıların çıxarıldığı hər aydan sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlisiniz.
- Mədən vergisini dövlət büdcəsinə ödəməlisiniz.

## Vergi güzəştləri

Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı ”Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş” adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD NƏŞRLƏR

1195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az